


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

18 iyun 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 22 (3785)


# Azərbaycanın Zəfər strategiyası



## Ölkəmizin iqtisadi gücü artır, beynəlxalq nüfuzu daha da yüksəlir

**Azərbaycanın son illərdə qazandığı nailiyyətlər ardıcıl və məqsədyönlü dövlət siyasətinin nəticəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkənin iqtisadi potensialını gücləndirib, beynəlxalq nüfuzunu artırıb və regionun lider dövlətlərindən biri kimi mövqeyini daha da möhkəmləndirib.**

İqtisadi inkişaf dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq qalır. Enerji resurslarından əldə olunan gəlirlər ölkənin uzunmüddətli maraqlarına uyğun şəkildə idarə olunub, iri infrastruktur layihələrinin reallaşdırılmasına, regionların inkişafına və sosial proqramların maliyyələşdirilməsinə yönəldilib. Bunun nəticəsində Azərbaycan maliyyə dayanıqlığını qoruyub saxlayaraq qlobal iqtisadi çağırışlara qarşı davamlı mövqe nümayiş etdirib.

Son illərdə qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər iqtisadiyyatın şaxələndirilməsini sürətləndirib. Kənd təsərrüfatı, sənaye, turizm, informasiya texnologiyaları və logistika sahələri yeni inkişaf mərhələsinə qədəm qoyub. Sənaye parklarının yaradılması, yerli istehsalın genişləndirilməsi və ixrac imkanlarının artırılması iqtisadi artımın mühüm mənbələrinə çevrilib.

Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsində enerji siyasəti mühüm rol oynayır. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kəmərləri ölkənin enerji xəritəsində strateji mövqeyini möhkəmləndirib. Cənub Qaz Dəhlizinin uğurla reallaşdırılması Azərbaycanın Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi rolunu daha da gücləndirib. Eyni zamanda yaşıl enerji istiqamətində atılan addımlar ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirir. Qarabağ və Şərqi Zəngəzurun yaşıl enerji zonası elan olunması bu siyasətin mühüm tərkib hissəsidir.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işləri aparılır. Yeni yaşayış məntəqələri salınır, müasir yollar, hava limanları və enerji infrastrukturu yaradılır. “Ağıllı şəhər” və “ağıllı kənd” layihələri regionun innovativ əsaslarla inkişafını təmin edir. “Böyük Qayıdış” proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı uğurla davam edir.

Sosial rifahın yüksəldilməsi də dövlət siyasətinin əsas prioritetləri sırasındadır. Təhsil, elm və insan kapitalının inkişafı istiqamətində görülən işlər Azərbaycanın gələcəyinə hesablanmış strateji investisiyadır. Rəqəmsal transformasiya, innovasiya və süni intellekt sahələrində həyata keçirilən proqramlar Azərbaycanın gələcəyin çağırışlarına hazır olduğunu göstərir.

Azərbaycanın nəqliyyat və logistika imkanları da sürətlə genişlənir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkəmiz Avrasiyanın mühüm tranzit mərkəzlərindən biridir. Bakı-Tbilisi-Qars dəmir yolu və Ələt Beynəlxalq Dəniz Ticarət Limanı bu istiqamətdə əldə olunan uğurların mühüm göstəriciləridir.

Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət Azərbaycanın qarşıdakı illərdə də regionun aparıcı siyasi, iqtisadi və nəqliyyat mərkəzlərindən biri kimi inkişafını davam etdirəcəyinə möhkəm zəmin yaradır. Bu inkişaf modeli göstərir ki, güclü siyasi iradə, strateji baxış və milli maraqlara söykənən siyasət dövlətlərin tərəqqisinin əsas şərtidir. Məhz bu siyasət nəticəsində Azərbaycan daha geniş coğrafiyanın mərkəzinə çevrilib.

# Yol polisi ilə bir gün…

## Paytaxt yollarının keşikçiləri

Səhər iş saatının başlanmasına hələ xeyli vaxt qalsa da, Bakı küçələrində hərəkətin intensivləşdiyi hiss olunurdu. Mərkəzə doğru artan nəqliyyat axını günün ilk pik saatının başladığından xəbər verirdi. Maraqlıdır ki, bu hərəkətliliyə baxmayaraq, yollarda ciddi sıxlıq müşahidə olunmurdu.

Bizim də avtomobilimiz rahat hərəkət axını ilə küçələrdən ötüb Bakı şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinə doğru irəliləyirdi. Paytaxt yollarında təhlükəsizliyin təmin olunmasına cavabdeh olan qurumun fəaliyyəti ilə yaxından tanış olmaq üçün yolumuzu bu dəfə buraya salmışdıq.

Növbətçi Hissənin qarşısından keçərək idarənin müxtəlif şöbələri ilə tanış oluruq. İnzibati binada əməkdaşların xidməti üçün hər bir şərait var.

*(Ardı 2-ci səhifədə)*

# Nəzəri biliklər təcrübə ilə möhkəmlənir

## Mütəxəssislər kursantlarla təcrübələrini bölüşürlər

Polis Akademiyasında kursantların peşə hazırlığının daha da təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində müxtəlif sahələr üzrə ixtisaslaşmış mütəxəssislərin iştirakı ilə mühazirələr mütəmadi olaraq təşkil edilir. Bu dərslər kursantların həm nəzəri biliklərinin dərinləşdirilməsinə, həm də praktiki təcrübə ilə zənginləşdirilməsinə imkan yaradır.

Müxtəlif fənlər üzrə təşkil olunan interaktiv dərslərdə qonaq qismində Bakı şəhər BPİ İstintaq və Təhqiqat İdarəsinin Təhqiqat şöbəsinin rəisi polis polkovniki Tərlan Zeynalov “Cinayət işinin başlanması” mövzusunda kursantlar qarşısında çıxış edib.

*(Ardı 3-cü səhifədə)*

# Sülh gündəliyinə görə təşəkkür

## İlham Əliyevdən Donald Trampa təbrik məktubu

“Biz Sizə Cənubi Qafqazda sülh gündəliyinin təşviqi naminə göstərdiyiniz qətiyyətə görə də minnətdarıq.”

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa 80 illik yubileyi münasibətilə təbrik məktubunda belə qeyd edilib. Dövlət başçısının “X” sosial şəbəkəsindəki hesabında paylaşımında bildirilib ki, Vaşinqtonda Trampın şahidliyi ilə imzalanmış üçtərəfli birgə bəyannamə, habelə Ermənistanla paraflanan Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş sülh quruculuğu yolunda onun ardıcıl səylərinin nəticəsidir.

# Azərbaycan-ABŞ əlaqələri güclənir

## Prezident Konqresin nümayəndəsini qəbul edib

Prezident İlham Əliyev iyunun 17-də ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamadeni qəbul edib. Görüşdə ölkəmizlə ABŞ Konqresi arasında dialoqun möhkəmləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb, iqtisadi-ticari, sərmayə, enerji, təhlükəsizlik, bağlantılar, texnologiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib, Azərbaycan-ABŞ tərəfdaşlığının perspektivləri müzakirə olunub.

# Prezidentdən Roma Papasına dəvət

## Dövlətimizin başçısı dəvət məktubu göndərib

Prezident İlham Əliyev iyunun 16-da Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti Corc Ceykob Kuvakadı qəbul edib.

Söhbət zamanı Azərbaycanda tarixən bütün xalqların və dinlərin nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşaması məmnunluqla qeyd olunub. Görüşdə dövlətimizin başçısı Roma Papası XIV Leonun ölkəmizə səfərə dəvəti ilə bağlı məktubunu Corc Ceykob Kuvakada təqdim edib.

# Liderlər razılaşdı

## İkitərəfli əməkdaşlıq dərinləşəcək

İyunun 16-da Prezident İlham Əliyev ilə Niderland Krallığının Baş naziri Rob Yetten arasında telefon danışığı olub.

Tərəflər siyasi dialoqu və iqtisadi əməkdaşlığı daha da dərinləşdirilməsi barədə razılığa gəliblər. Həmçinin regional proseslər ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycan Prezidenti Niderlandın bölgədə dayanıqlı sülhə və sabitliyə verdiyi dəstəyə görə məmnunluğunu ifadə edib.


**Gənclərə böyük etimad göstərilir** — 2



**Kredit vədi ilə qurulan tələlər** — 3



**Şübhə yaradan davranışlar** — 4



**Nadir nəşrlərin sirli talanı** — 4



# Respublika Xəbərləri

### Hava limanlarında idarəetmə dəyişir

Azərbaycanüda hava limanlarının idarə olunmasını tənzimləyən yeni qayda təsdiqlənib. Bununla bağlı Prezident İlham Əliyev müvafiq Fərman imzalayıb. Sənəd hava limanlarının idarə edilməsi sahəsində hüquqi tənzimləməni müəyyənləşdirir. Nazirlər Kabinetinə qaydanın tətbiqindən irəli gələn məsələlərin həlli tapşırılıb.

### Uşaqların onlayn müdafiəsi güclənir

Milli Məclis yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarının fəaliyyəti ilə bağlı yeni tələbləri və cərimələri ilk oxunuşda qəbul edib. Dəyişikliklər uşaqların zərərli məzmundan qorunması, yaşın yoxlanılması, şəxsi məlumatların mühafizəsi və platformaların təhlükəsizlik öhdəliklərini əhatə edir. Tələbləri pozan vəzifəli şəxslər və hüquqi şəxslər üçün müxtəlif məbləğlərdə cərimələr nəzərdə tutulur.

### 65 min nəfər işlə təmin olunub

Azərbaycanda bu ilin ilk beş ayında 65 min şəxs işlə təmin edilib. Hesabat dövründə 170,1 min nəfər aktiv məşğulluq tədbirlərinə cəlb olunub. Həmçinin 322 şəxs özünüməşğulluq proqramından yararlanıb və 7,3 min nəfər üçün peşə hazırlığı kursları təşkil edilib. Bundan əlavə, 97,5 min şəxsə peşəyönümü xidmətləri göstərilib.

### Məcəllədə dəyişikliklər

Milli Məclis İnzibati Xətalar Məcəlləsinə edilən çoxsaylı dəyişiklikləri üçüncü oxunuşda qəbul edib. Yeni qaydalara əsasən, narkoloji xəstələrin işləməsinə icazə verilməyən sahələrdə onlarla əmək müqaviləsinin bağlanmasına və ya uzadılmasına görə məsuliyyət nəzərdə tutulur. Həmçinin bu sahələrdə tibbi yoxlama arayışı olmadan işə qəbul hallarına görə də cərimələr tətbiq ediləcək.

### Yeni parklanma yerləri yaradılıb

Bakıda daha 7 ünvanda tibb müəssisələrinin yaxınlığında parklanma yerlərinin bir hissəsi yenidən təşkil edilərək sərnişinlərin rahat minib-düşməsi üçün şərait yaradılıb. Bu məqsədlə poliklinikalar, xəstəxanalar və dispanserlərin yaxınlığında müvafiq yol nişanları quraşdırılıb. Yeni təşkil edilən sahələrdə taksi və fərdi nəqliyyat vasitələri ilə gələnlərin rahat hərəkəti təmin olunub.

### Texnoparklara yeni güzəştlər

Nazirlər Kabineti sənaye və texnologiyalar parklarının idarəedici təşkilatları, operatorları və rezidentləri tərəfindən idxal edilən bəzi texnika və avadanlıqların siyahısını təsdiqləyib. Siyahıya daxil edilən məhsullar əlavə dəyər vergisi və gömrük rüsumlarından azad olunacaq.

### Qanunvericilik təşəbbüsü elektronlaşır

Vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadə qaydasının elektronlaşdırılmasını nəzərdə tutan qanun dəyişiklikləri müzakirə olunub. Dəyişikliklər ictimai dinləmələrin, ictimai müzakirələrin və qanunvericilik təşəbbüsü ilə bağlı prosedurların Elektron Hökumət İnformasiya Sistemi üzərindən həyata keçirilməsinə hüquqi əsas yaradır. Layihəyə əsasən, sənədlərin təqdim edilməsi, məlumatlandırma və digər proseslər elektron qaydada aparılacaq.

### Qan Bankı şəbəkəsi genişlənir

Yaxın vaxtlarda işğaldan azad olunmuş iki iqtisadi rayonda Qan Bankının regional bölmələrinin yaradılması planlaşdırılır. Hazırda ölkə üzrə Qan Bankının 8 regional bölməsi fəaliyyət göstərir. Bu addımlar qan ehtiyatlarının artırılması və xidmətlərin əlçatanlığının genişləndirilməsinə xidmət edir.

### Şükürbəylilər də qayıdır

Cəbrayıl rayonunun Şükürbəyli kəndinə növbəti köç prosesi gerçəkləşib. Kəndə bu mərhələdə  45 ailə olmaqla, 196 nəfərə qayıdıb. Qeyd edək ki, kənd tam müasir standartlara uyğun şəkildə yenidən qurulub. Hər biri 80 yerlik olmaqla iki körpələr evi-uşaq bağçası, 360 şagird yerlik məktəb binası, həkim məntəqəsi, musiqi məktəbi, klub-icma mərkəzi, həmçinin yerli icra strukturları üçün inzibati bina tikilib.

### Pensiyalar artıb

Bu ilin 5 ayında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz, yəni 308 milyon manat çox olmaqla 3 milyard 262 milyon manat vəsait yönəldilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, 1 iyun 2026-cı il tarixə pensiyaların orta aylıq məbləği ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz artaraq 594 manata, o cümlədən yaşa görə orta aylıq pensiyanın məbləği 632 manata çatıb.

# Gənclərə böyük etimad göstərilir

## Polisin sıraları gənclərlə güclənir

Prezident İlham Əliyev Azərbaycanın daha da qüdrətlənməsi yolunda gəncləri əsas aparıcı qüvvələrdən biri kimi görür və onlara böyük etimad göstərir. Bu yanaşmanın nəticəsi olaraq gənclərin hərtərəfli inkişafı üçün yeni imkanlar yaradılır, onların dövlət idarəçiliyində, təhlükəsizlik və hüquq-mühafizə sahələrində təmsilçiliyi genişləndirilir.

Daxili işlər orqanlarında gənclər üçün açılan yeni perspektivlər də bu strateji xəttin əsas istiqamətlərindən biridir. Nazirliyin rəhbərliyinin iştirakı ilə respublikanın müxtəlif şəhər və rayonlarında keçirilən sıra baxışları yüzlərlə gəncin polis sıralarında xidmət etmək arzusunun gerçəkləşməsinə imkan verir. Eyni zamanda, bu proses şəxsi heyətin yenilənməsinə, peşəkar və hazırlıqlı kadrların seçilməsinə xidmət edən şəffaf mexanizmin formalaşdırılmasına şərait yaradır. Beləliklə, həm gənclərin xidmətə cəlb olunması üçün geniş fürsət qapısı açılır, həm də daxili işlər orqanlarının gələcək inkişaf istiqamətləri müəyyənləşdirilir.

Bu ilin ilk yarısında bölgələrdə keçirilən sıra baxışlarının nəticələri bir daha göstərdi ki, gənclərin polis və daxili qoşunlarda xidmətə marağı azalmır, əksinə, daha da artır.

Quba, Qəbələ, Cəlilabad, Göyçay, İmişli və Qazax rayonlarında, eləcə də Bakıda keçirilən sıra baxışlarında yüzlərlə gəncin növbəti seçim mərhələsinə buraxılması statistik göstəricidən daha böyük məna daşıyır. Çünki söhbət gələcəkdə ölkənin sabitliyinə cavabdeh olacaq geniş kadr ehtiyatından gedir.

Müasir dövrün çağırışları daxili işlər orqanlarının fəaliyyət dairəsini də xeyli genişləndirib. Üstəlik, gələcəkdə hansı yeni risklərin meydana çıxacağını əvvəlcədən proqnozlaşdırmaq çətindir.

Ərazi bütövlüyü tam təmin olunmuş ölkədə ictimai asayişin qorunması, cinayətkarlığa qarşı mübarizə və ölkə əhəmiyyətli tədbirlərin təhlükəsizliyinin təmin edilməsi kimi ənənəvi vəzifələrlə yanaşı, kibertəhdidlərin qarşısının alınması və narkotik vasitələrin qanunsuz dövriyyəsinin yeni üsullarının aşkar edilməsi də daxili işlər orqanlarının fəaliyyətində mühüm istiqamətlər kimi ön plana çıxıb. Bu isə daha hazırlıqlı və güclü şəxsi heyət tələb edir.



Ona görə də xidmətə qəbul prosesi yalnız vakant yerlərin doldurulması mənasına gəlmir. Əslində, bu gün gələcəyin polisi seçilir. Bu baxımdan ilin altı ayı ərzində keçirilən sıra baxışlarının nəticələri bölgələr üzrə maraqlı mənzərə yaradır. Ən yüksək göstərici Cəlilabadda qeydə alınıb. Burada 258 nəfər növbəti mərhələyə vəsiqə qazanıb. Qazax və Ağstafa bölgələrini əhatə edən seçimlərdə 238, Göyçayda 230, Qubada 223, İmişlidə 216, Qəbələdə isə 206 nəfər uğur əldə edib. Bakıda keçirilən iki sıra baxışında ümumilikdə 295 nəfər növbəti mərhələyə buraxılıb.

Diqqət çəkən digər məqamlardan biri Vətən müharibəsi iştirakçılarının prosesə fəal qoşulmasıdır. Quba və Qəbələdə keçirilən sıra baxışlarında ümumilikdə 36 müharibə iştirakçısı yer alıb. Döyüş yolu keçmiş bu gənclərin daxili işlər orqanlarında xidmətə cəlb olunması onların dövlətə və cəmiyyətə xidmət missiyasını yeni müstəvidə davam etdirməsinə imkan yaradır.

Bütövlükdə isə proses onu göstərir ki, Daxili İşlər Nazirliyi yeni nəsil kadrların formalaşdırılması istiqamətində ardıcıl və aydın strateji tədbirlər görür.

---

# Yol polisi ilə bir gün…

## Paytaxt yollarının keşikçiləri

*(Əvvəli 1-ci səhifədə)*

Xüsusi döyüş hazırlığı və peşə bacarıqlarının artırılması məqsədilə ayrılmış təlim otaqları və müasir idman zalı diqqətimizi çəkir.

### İş saatı başlamazdan əvvəl polisin xidməti başlayır

Binanın yuxarı mərtəbələrindən birində ümummilli lider Heydər Əliyevin xatirəsinə yaradılmış guşə yerləşir. Divarda həkk olunmuş sözlər sanki hər bir polis əməkdaşının xidmət fəlsəfəsini ifadə edir: “Polis, daxili işlər



orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir”. Çox güman ki, bu fikirlər yollarımızda minlərlə insanın təhlükəsizliyi naminə xidmət aparan əməkdaşlara üzərlərinə düşən məsuliyyəti hər gün bir daha xatırladır.

### Monitorlardan görünən Bakı

İdarənin əməliyyat mərkəzinə daxil olduqda isə paytaxtın tamam başqa mənzərəsi açılır. Böyük monitorlarda Bakının müxtəlif küçə və prospektləri canlı izlənilir. Onlarla kamera şəhər nəqliyyatının hərəkətini saniyə-saniyə nəzarətdə saxlayır. Əməkdaşlar monitordakı görüntüləri diqqətlə təhlil edir, yol hərəkətində yarana biləcək problemləri əvvəlcədən müəyyənləşdirməyə çalışırlar. Hər hansı qəza, nasazlıq və ya sıxlıq əlaməti müşahidə olunan kimi məlumat aidiyyəti bölmələrə ötürülür.

Bu əlaqəli fəaliyyət nəticəsində bir çox hallarda sürücülər problemin həll olunduğunu görür, lakin bunun arxasında hansı operativ işin dayandığını hiss etmirlər. Həmsöhbətlərimiz bizə bildirirlər ki, polis əməkdaşları paytaxtın inzibati ərazisində yol hərəkəti-



nin təhlükəsizliyinin təmin olunması, yol-nəqliyyat hadisələrinin qarşısının alınması və onların sayının minimuma endirilməsi istiqamətində fasiləsiz fəaliyyət göstərirlər.

### “Qəzaların əsas səbəbləri qaydalara biganəlikdir”

Statistik göstəricilərlə tanış olan zaman öyrənirik ki, son illər yol-nəqliyyat hadisələrinin, eləcə də qəzalarda ölən və xəsarət alanların sayında nəzərəçarpan dərəcədə azalma var. Bununla belə, mövcud rəqəmlər hələ də narahatlıq doğurur. İdarə əməkdaşlarının sözlərinə görə, qəzaların başlıca səbəblərindən biri sürət həddinin aşılmasıdır. Məsələn, bir çox sürücülər kameraya yaxınlaşarkən sürətlərini azaldır, nəzarət nöqtəsini keçdikdən sonra isə yenidən sürət yığırlar. Təhlillər göstərir ki, ağır nəticəli hadisələrin böyük hissəsi məhz iki nəzarət nöqtəsi arasında baş verir. Ara məsafəsinin düzgün saxlanılmaması da ciddi problemlər yaradır. Qarşıdakı avtomobilin sürücüsü qəfil əyləcə basdıqda nəqliyyat vasitəsini təhlükəsiz şəkildə dayandırmağa imkan verəcək məsafənin qorunmaması toqquşma ilə nəticələnir. Digər təhlükəli amillər sırasında mobil telefondan istifadə, lüzumsuz manevrlər və yolayrıclarının keçilməsi qaydalarının pozulması halları da yer alır. Xüsusilə taksi fəaliyyəti ilə məşğul olan sürücülər sifariş qəbul etmək və ünvan müəyyənləşdirmək məqsədilə sükan arxasında telefondan istifadə etdikləri üçün bu sahədə pozuntular daha çox qeydə alınır.

### Yollarda sıxlıq birgə tədbirlərlə aradan qaldırılır

Bəzən paytaxt yollarında müşahidə olunan sıxlığın səbəblərini araşdırmağa çalışırıq. Bildirilir ki, nəqliyyat sıxlığının yaranmasının əsas səbəblərindən biri dayanma və durma qaydalarının pozulmasıdır. Bəzən sürücünün cəmi bir neçə saniyəlik dayanması belə hərəkət zolağının bağlanmasına səbəb olur. Nəticədə yolun axıcılıq qabiliyyəti azalır və sıxlıq zəncirvari şəkildə digər küçələrə də yayılır. Yolayrıclarında qaydalara əməl edilməməsi də eyni təsiri yaradır. Yaşıl işıq yansa belə, qarşıdakı hissə doludursa, sürücünün yolayrıcına daxil olmaması tələb olunur. Bu qaydaya əməl edilmədikdə bir küçədə yaranan problem qısa müddətdə bütöv nəqliyyat şəbəkəsinə təsir göstərir. Bu istiqamətdə Dövlət Yol Polisi əməkdaşları Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi ilə sıx əməkdaşlıq şəraitində xidmət aparırlar. Yol-nəqliyyat hadisələri və digər hallar barədə məlumatlar operativ şəkildə paylaşılır, əməkdaşlar hadisə yerinə yönləndirilir və nəqliyyat axınının




bərpası üçün zəruri tədbirlər görülür.

### Yeni zolaqlar təhlükəsizliyi artırıb

Hər bir şəhər sakini razılaşar ki, son illərdə Bakıda həyata keçirilən mühüm yeniliklərdən biri ictimai nəqliyyat zolaqlarının yaradılması oldu. Bu addım avtobusların hərəkətini daha sürətli və təhlükəsiz edib. Bir vaxtlar avtobusların dayanacaqlara gecikməsi ilə bağlı daxil olan şikayətlər artıq xeyli azalıb.

İdarədə də qeyd olundu ki, ictimai nəqliyyat üçün zolaqların ayrılması şəhərin nəqliyyat sistemində yeni mərhələnin başlanğıcıdır. Xüsusən mikromobillik, yəni velosiped, skuter və mopeddən istifadə edənlər üçün yaradılan xüsusi zolaqlar onların hərəkət təhlükəsizliyini əhəmiyyətli dərəcədə artırıb.

Qanunvericiliyə edilən dəyişikliklər nəticəsində moped sürücüləri üçün sürücülük vəsiqəsinin məcburi olması da müsbət nəticələr verir. Artıq bu nəqliyyat vasitələrini idarə edən şəxslər yol hərəkəti qaydaları üzrə biliklərini rəsmi şəkildə təsdiqləyirlər. Bu isə qəzaların sayına birbaşa təsir göstərir. Bununla yanaşı, skuter və digər ikitəkərli nəqliyyat vasitələri ilə bağlı nəzarət tədbirləri də davam etdirilir. Qayda pozuntularına yol verən sürücülər barəsində qanunvericiliyə uyğun tədbirlər görülür.

Burada keçirdiyimiz ilk dəqiqələrdən hiss olunurdu ki, yollarda görünən nizamın arxasında gərgin əmək, qüsursuz xidmət dayanır. Monitorlar qarşısında gecə-gündüz çalışan əməkdaşlar, küçələrdə xidmət aparan yol polisləri, qəza yerinə ilk çatan ekipajlar insanların evdən çıxıb təhlükəsiz şəkildə mənzil başına çatması üçün fasiləsiz xidmət edirlər.

*(Ardı növbəti sayımızda)*

***Rəşad Mehtiyev***

# Nəzəri biliklər təcrübə ilə möhkəmlənir

## Mütəxəssislər kursantlarla təcrübələrini bölüşürlər



*(Əvvəli 1-ci səhifədə)*

DİN-in Baş Narkotiklərə Mübarizə İdarəsinin Tədqiqatlar qrupunun rəhbəri polis mayoru Nəcəf Aydınsoy isə "Narkotik vasitələr və psixotrop maddələrlə bağlı cinayətlərin araşdırma metodikası mövzularında mühazirə ilə çıxış edib.

Dərslər zamanı mühazirəçilər müvafiq sahələr üzrə qanunvericiliyin tətbiqi xüsusiyyətləri, polis orqanlarının fəaliyyətində rast gələn aktual məsələlər və praktiki təcrübələr barədə ətraflı məlumat veriblər.

# Polisin "Son zəng" hazırlığı

## Tədbirlər yüksək təhlükəsizlik şəraitində başa çatıb

Respublikanın bütün ümumtəhsil müəssisələrində keçirilən "Son zəng" tədbirləri ictimai asayişin və təhlükəsizliyin yüksək səviyyədə təmin olunması şəraitində başa çatıb.

Tədbirlərlə əlaqədar Daxili İşlər Nazirliyinin aidiyyəti qurumları tərəfindən əvvəlcədən hazırlanmış təhlükəsizlik planına uyğun olaraq paytaxt və bölgələrdə polis naryadlarının sayı artırılıb, məktəblərin ətrafında və məzunların kütləvi toplandığı ərazilərdə xidmət gücləndirilmiş rejimdə təşkil olunub.

Polis əməkdaşları tərəfindən yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi, dayanma-durma qaydalarına nəzarət, məzunların və digər vətəndaşların rahat hərəkətinin təşkili istiqamətində zəruri tədbirlər görülüb.

Eyni zamanda sürücülük hüququ olmayan şəxslərin nəqliyyat vasitələrini idarə etməsinə qarşı profilaktik nəzarət tədbirləri həyata keçirilib.

Görülən kompleks tədbirlər nəticəsində "Son zəng" günü ilə bağlı keçirilən tədbirlər zamanı ictimai asayiş pozuntularının və ciddi hüquqazidd halların qarşısı alınıb, məzunlar bu əlamətdar günü təhlükəsiz şəraitdə qeyd ediblər.

# Qətiyyətli mübarizə

## Tonlarla narkotik vasitə məhv edilib



İyunun 11-də polis əməkdaşları tərəfindən aşkarlanan müxtəlif növ narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının növbəti məhv edilməsi prosesi keçirilib.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun təşkilatçılığı ilə Daxili İşlər Nazirliyi tərəfindən qanunsuz dövriyyədən çıxarılan və məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı qəbul edilmiş 4 ton 576 kiloqram müxtəlif narkotik vasitə və 122 min 367 ədəd psixotrop tərkibli həb paytaxtın Sabunçu rayonu ərazisində məhv edilib.

Balakən rayonunda isə çəkisi 10 tona yaxın 10 815 ədəd çətənə kolu məhv edilib. Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri "Xaş-xaş-2026" şərti adlı kompleks tədbirlər nəticəsində Hənifə kəndi ərazisində yabanı halda bitən narkotik tərkibli bitkilər aşkar edilib.

Qax Rayon Polis Şöbəsinin əməkdaşlarının da kompleks tədbirləri nəticəsində Uzuntala kəndi ərazisində ümumi çəkisi 1 ton 200 kq olan 3300 ədəd çətənə kolu məhv edilib.

# Qadın və uşaq hüquqları diqqət mərkəzindədir

## Polis bu məsələlərdə prinsipiallıq nümayiş etdirir

**Azərbaycanda qadın və uşaq hüquqlarının müdafiəsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu sahədə həyata keçirilən tədbirlər, qəbul olunan proqramlar və görülən profilaktik işlər insan hüquqlarının etibarlı şəkildə qorunmasının bariz nümunəsidir.**

Daxili İşlər Nazirliyi də öz fəaliyyətində bu məsələləri xüsusi diqqətdə saxlayaraq qadınların və uşaqların təhlükəsizliyinin təmin olunmasına yönəlmiş tədbirləri ardıcıl şəkildə davam etdirir.

### Elmi-praktiki konfrans DİN-in təşkilatçılığı ilə keçirildi

Bu istiqamətdə keçirilən son tədbirlərdən biri qadınlara qarşı zorakılıq hallarının qarşısının alınmasına həsr olunmuş elmi-praktiki konfrans oldu. Tədbirdə aidiyyəti dövlət qurumlarının və ictimai sektor nümayəndələrinin iştirakı ilə mövcud vəziyyət, qarşıda duran vəzifələr, eləcə də əməkdaşlıq imkanları müzakirə edildi, qadınların müdafiəsi və zərərçəkmiş şəxslərə dəstək mexanizmlərinin gücləndirilməsi məsələlərinə xüsusi diqqət yetirildi.

Qadın hüquqlarının qorunması ilə yanaşı, uşaqların təhlükəsizliyinin təmin olunması da polisin fəaliyyətində mühüm yer tutur. Mütəxəssislərin fikrincə, müasir dövrdə uşaqların üzləşdiyi risklər əvvəlki illərlə müqayisədə daha mürəkkəb xarakter alıb. Əgər vaxtilə əsas təhlükələr məişət və sosial mühitlə bağlı idisə, bu gün texnologiyaların sürətli inkişafı yeni çağırışlar yaradıb. Sosial şəbəkələr və rəqəmsal platformalar uşaqlar üçün yeni imkanlar açsa da, kiberzorakılıq, hədə-qorxu, manipulyasiya, zərərli informasiya və onlayn istismar kimi riskləri də artırıb.

### Uşaqların internet təhlükəsizliyi həm də maarifləndirmədən asılıdır

Bu səbəbdən polis fəaliyyətini müasir təhlükələrə uyğunlaşdıraraq rəqəmsal mühitdə baş verən hüquq pozuntularının qarşısının alınmasına xüsusi diqqət yetirir. Profilaktik tədbirlər çərçivəsində valideynlər, müəllimlər və təhsil müəssisələri ilə əməkdaşlıq gücləndirilir, uşaqların internet təhlükəsizliyi sahəsində maarifləndirilməsi istiqamətində sistemli iş aparılır. Risk qrupuna daxil olan uşaqların vaxtında müəyyənləşdirilməsi, onların təhlükəsiz mühitə çıxarılması və hüquqlarının bərpası ilə bağlı görülən işlər zamanı psixoloji yanaşmalara da xüsusi önəm verilir. Uşaqların kibertəhlükəsizliyinə həsr olunan və ötən həftə keçirilən tədbirdə də bu məsələnin əhəmiyyəti xüsusi vurğulanıb.

Bu gün qadın və uşaq hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlər göstərir ki, polis təhlükələrin vaxtında müəyyənləşdirilməsi, hüquqların müdafiəsi, profilaktik tədbirlərin təşkili və cəmiyyətin maarifləndirilməsində prinsipial mövqe nümayiş etdirir. Bu istiqamət Daxili İşlər Nazirliyinin fəaliyyətində əsas prioritetlərdən biri olaraq qalır.

# Gizli talama gizli qalmadı

## Polis oğruları ifşa edib

Paytaxtın Nərimanov rayonunda talama cinayəti qeydə alınıb. Zərərçəkən polisə müraciət edərək gödəkcəsinin cibindən 5000 dollar nağd pulun naməlum şəraitdə oğurlandığını bildirib.

Polis əməkdaşları tərəfindən keçirilən tədbirlə cinayət əməlini törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 35 yaşlı İ.Süleymanov müəyyən edilərək saxlanılıb. Araşdırmalar zamanı onun restoranların birində zərərçəkənin paltar dolabına asdığı gödəkcəsinin cibindən pul vəsaitini taladığı məlum olub.

Sumqayıt şəhərində baş vermiş oğurluq hadisəsinin də üstü açılıb. Zərərçəkən polisə müraciət edərək yaşadığı evdən ümumi dəyəri 4000 manat olan qızıl-zinət əşyalarının talandığını bildirib. Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş 31 yaşlı R.Quliyeva müəyyən olunaraq saxlanılıb. Araşdırma zamanı onun bundan əvvəl də bir nəfərə məxsus planşeti oğurladığı məlum olub.

Faktlarla bağlı araşdırmalar davam etdirilir.

# Kredit vədi ilə qurulan tələlər

## Kiberdələduzlar vətəndaşları necə aldadır?




Rəqəmsal texnologiyaların sürətli inkişafı insanların gündəlik həyatını xeyli asanlaşdırsa da, kibercinayətkarlar üçün də yeni imkanlar yaradıb.

### Tələyə düşənlər

Son illər bank kartlarından pul vəsaitlərinin oğurlanması, saxta internet səhifələri vasitəsilə şəxsi məlumatların ələ keçirilməsi və müxtəlif maliyyə dələduzluğu halları daha geniş yayılıb. Vətəndaşlar isə çox vaxt sürətli qazanc, sərfəli kredit və ya digər cəlbedici təkliflər adı altında qurulan tələlərin qurbanına çevrilirlər.

### Kiberpolis saxtakarları ifşa edir

Bu kimi hallarla bağlı Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinə mütəmadi müraciətlər daxil olur. Kiberpolis daxil olan məlumatları operativ araşdırır, kibercinayət əməllərini törədən şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunması istiqamətində zəruri tədbirlər həyata keçirir.

Növbəti belə əməliyyat-texniki tədbirlər nəticəsində vətəndaşların bank kartlarından pul vəsaitlərinin oğurlanmasında şübhəli bilinən şəxslər müəyyən edilərək saxlanılıblar. Araşdırmalar zamanı məlum olub ki, onlar sosial şəbəkələrdə müxtəlif bank və bank olmayan kredit təşkilatlarının rəsmi səhifələrinə bənzər saxta profillər yaradıblar. Həmin səhifələr vasitəsilə vətəndaşlara aşağı faizli, sürətli və zaminsiz kreditlər vəd olunub.

Kredit əldə etmək istəyən şəxslərə göndərilən keçidlər isə əslində saxta internet səhifələrinə yönləndirib. Vətəndaşlar bu səhifələrdə bank kartlarının rekvizitlərini, CVV kodlarını və birdəfəlik təsdiq şifrələrini daxil etdikdən sonra məlumatlar kiberdələduzların əlinə keçib. Nəticədə onların bank hesablarına qanunsuz giriş əldə edilərək müxtəlif məbləğlərdə pul vəsaitləri başqa hesab və kartlara köçürülüb, sonradan isə nağdlaşdırılıb.

### Kiberdələduzlardan necə qorunmalı?

Bu kimi cinayətlərin qarşısının alınmasında vətəndaşların diqqətli davranması xüsusi əhəmiyyət daşıyır. Kibercinayətkarlar əksər hallarda insanların etibarından və məlumatsızlığından istifadə edirlər. Onlar özlərini bank əməkdaşı, kredit mütəxəssisi və ya müxtəlif qurumların nümayəndəsi kimi təqdim edərək kart məlumatlarını əldə etməyə çalışırlar. Belə halların qurbanına çevrilməmək üçün bir sıra təhlükəsizlik qaydalarına əməl olunmalıdır. İlk növbədə nank kartının nömrəsini, CVV kodunu və SMS vasitəsilə göndərilən birdəfəlik təsdiq şifrələrini heç kimlə paylaşılmamalıdır. Unutmaq olmaz ki, bank əməkdaşları və digər rəsmi qurumların nümayəndələri bu məlumatları telefon zəngi, mesaj və ya sosial şəbəkələr vasitəsilə tələb etmirlər. Həmçinin sosial şəbəkələrdə və mesajlaşma tətbiqlərində göndərilən şübhəli keçidlərə daxil olmaqdan çəkinmək, sayt ünvanlarını diqqətlə yoxlamaq və güclü parollardan istifadə etmək və iki faktorlu təsdiqini aktivləşdirmək mütləqdir.

Kibertəhlükəsizlik hər bir istifadəçinin gündəlik davranışının ayrılmaz hissəsinə çevrilməlidir. Sadə təhlükəsizlik qaydalarına əməl etməklə həm şəxsi məlumatları, həm də maliyyə vəsaitlərini kibercinayətkarların hədəfindən qorumaq mümkündür.

*Fidan Məmmədova*

# Avtoxuliqan həbs edilib

## O, avtomobili narkotik vasitənin təsiri altında idarə edirmiş

Bakı şəhər DYP İdarəsinin əməkdaşları tərəfindən yol hərəkəti qaydalarını kobud şəkildə pozub avtoxuliqanlıq edərək digər hərəkət iştirakçılarının həyat və sağlamlığına real təhlükə yaradan "Khazar" markalı 77-GQ-602 dövlət qeydiyyat nişanlı nəqliyyat vasitəsinin sürücüsü E.Həşimov saxlanılıb.

Sənədləri yoxlanılan zaman sürücünün hərəkətləri şübhə doğurduğundan onun tibbi müayinədən keçməsi təmin olunub. Müayinə zamanı E.Həşimovun narkotik vasitə qəbul etməsi də müəyyən olunub.

Sürücü barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə əsasən protokol tərtib edilərək baxılması üçün aidiyyəti məhkəməyə göndərilib. Məhkəmənin qərarı ilə sürücü E.Həşimovun nəqliyyat vasitəsini idarəetmə hüququ 1 il müddətinə məhdudlaşdırılıb və o, 25 sutka inzibati qaydada həbs edilib.

# Bir soyğunçu, iki oğru...

## Bakıda soyğunçuluq edən və motosiklet oğurlayan şəxslər saxlanılıblar

Paytaxtın Yasamal rayonunda yerləşən marketlərin birində soyğunçuluq edilib. Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 30 yaşlı Ş.Teymurov müəyyən edilərək saxlanılıb.

Nəsimi rayonunda isə dəyəri 2000 manat olan motosiklet oğurlanıb. Polis əməkdaşları tərəfindən əməli törətməkdə şübhəli bilinən M.Sadıxov və S.Hüseynov müəyyən edilərək saxlanılıblar.

Faktlarla bağlı araşdırmalar aparılır.

# Şübhə yaradan davranışlar

## Cinayətlərin araşdırılmasında psixologiya və davranış analizi mühümdür

**Cinayətlərin açılmasında təkcə maddi sübutlar və texniki vasitələr kifayət etmir. Uzun illərin istintaq təcrübəsi göstərir ki, bəzən ən vacib ipucları insanın davranışında gizlənir. Məhz buna görə müasir polis fəaliyyəti psixoloji müşahidə və davranış analizinə xüsusi önəm verir. Şübhəli davranış isə hər zaman cinayət əlaməti olmasa da, müəyyən hallarda diqqət tələb edən vacib siqnal hesab olunur.**



### Normal və qeyri-adi davranış arasındakı fərq

Şübhəli davranışın əsas xüsusiyyətlərindən biri onun mövcud vəziyyətə uyğun gəlməməsidir. İnsanlar stress, qorxu, həyəcan və ya xarakterik xüsusiyyətlərinə görə müxtəlif reaksiyalar verə bilərlər. Lakin bəzi hallarda davranışın situasiyaya uyğun olmaması diqqəti cəlb edir. Məsələn, adi bir hadisəyə həddindən artıq kəskin reaksiya göstərilməsi və ya əksinə, ciddi vəziyyətdə tam laqeyd davranılması istintaq baxımından maraq doğura bilər. Polis əməkdaşları ilkin müşahidə zamanı məhz bu kimi nüansları diqqətdə saxlayırlar.

### Göz kontaktı və bədən dili "açardır"

Cəmiyyətdə geniş yayılmış fikirlərdən biri odur ki, gözünü qaçıran insan mütləq nəyisə gizlədir. Lakin müasir psixologiya göstərir ki, bu fikir hər zaman doğru deyil. Göz kontaktından yayınmaq utancaqlıq, narahatlıq, stress və ya mədəni davranışlarla da bağlı ola bilər.

Eyni yanaşma bədən dilinə də aiddir. Əllərin hərəkəti, mimikalar, oturuş tərzi və ya jestlər ayrı-ayrılıqda qəti nəticə çıxarmağa imkan vermir. Təcrübəli mütəxəssislər bu əlamətləri bütöv davranış mənzərəsinin tərkib hissəsi kimi qiymətləndirirlər.

### Stress zamanı davranış dəyişikliyi olur

Şübhəli davranışın ən çox rast gəlinən göstəricilərindən biri stress anında verilən reaksiyalardır. Polis sorğusu və ya gözlənilməz suallar qarşısında insanın davranışında müəyyən dəyişikliklər yarana bilər.

Bu dəyişikliklər səs tonunun fərqlənməsində, cavabların gecikməsində, həddindən artıq ətraflı izahlarda və ya əksinə, çox qısa cavablarda özünü göstərə bilər. Burada əsas diqqət yetirilən məqam insanın adi davranışı ilə müqayisədə yaranan fərqdir. Qəfil dəyişikliklər əlavə araşdırma üçün siqnal sayıla bilər.

### Həddindən artıq izah vermək istəyi

Psixoloqların diqqət çəkdiyi maraqlı məqamlardan biri də bəzi insanların sadə suallara həddindən artıq uzun və ətraflı cavab verməyə çalışmasıdır. Bu davranış hər zaman günahkarlıq əlaməti sayılmasa da, istintaq praktikasında diqqət yetirilən amillərdən biridir. Çünki bəzi insanlar təzyiq və ya narahatlıq hiss etdikdə özlərini daha çox izah etməyə çalışırlar. Bu isə onların davranış modelində nəzərə çarpan dəyişiklik yarada bilər.

### Təcrübə və müşahidə əsas amildir

Şübhəli davranışın müəyyən edilməsi heç vaxt tək bir əlamətə əsaslanmır. Bu, müşahidə bacarığı, təcrübə və vəziyyətin düzgün qiymətləndirilməsinin nəticəsidir.

Polis əməkdaşları üçün əsas prinsip ondan ibarətdir ki, davranış özü dəlil deyil, yalnız istiqamət göstəricisidir. Belə müşahidələr istintaqın hansı istiqamətdə davam etdirilməsinə qərar verməyə kömək edir, lakin yekun nəticə üçün kifayət etmir.

Şübhəli davranışı tanımaq dəqiq elm deyil, insan psixologiyasını anlamaq bacarığıdır. Hər bir insan hadisələrə fərqli reaksiya verir və bu fərqlilikləri düzgün qiymətləndirmək peşəkarlıq tələb edir.

Müasir istintaq təcrübəsi göstərir ki, ən vacib bacarıqlardan biri tələsmədən müşahidə aparmaq və davranışı kontekstdən kənar qiymətləndirməməkdir. Çünki bəzən həqiqət nə deyilən sözlərdə, nə də görünən sübutlarda olur. O, insan davranışının ən incə dəyişikliklərində gizlənə bilər.

*Aytən Tahirova*

# Ən maraqlı polis təqibləri

## Dünyanın müxtəlif ölkələrində tarixə düşən polis əməliyyatları və onların nəticələri

Kino ekranlarında gördüyümüz həyəcanlı polis təqibləri əslində real həyatda da baş verir. Lakin müasir dövrdə bu əməliyyatlar təkcə sürətli avtomobillər və küçə təqiblərindən ibarət deyil. Helikopterlər, müşahidə kameraları, nömrə tanıma sistemləri və digər müasir texnologiyalar hüquq-mühafizə orqanlarının imkanlarını xeyli genişləndirib. Dünyanın müxtəlif ölkələrində qeydə alınmış bəzi əhəmiyyətli hadisələr göstərir ki, ən mürəkkəb qaçış planları belə çox vaxt uğursuzluqla nəticələnir.

### Uayti Bulger illərlə istintaqdan qaçsa da...

ABŞ tarixinin ən çox axtarılan cinayətkarlarından biri olan Ceyms Uayti Bulger 2011-ci ildə Kaliforniyanın Santa Monika şəhərində saxlanılıb. O, 1995-ci ildən etibarən Federal Təhqiqatlar Bürosu (FBI) tərəfindən axtarılırdı və 16 ildən çox müddətdə müxtəlif saxta şəxsi məlumatlardan istifadə etməklə gizlənməyi bacarmışdı. Bulger və onunla birlikdə yaşayan qadın sakit yaşayış məhəllələrində diqqət çəkmədən həyat sürməyə çalışırdı. Lakin uzunmüddətli araşdırmalar, daxil olan məlumatlar və operativ tədbirlər nəticəsində onların gizləndiyi ünvan müəyyən edildi. 2011-ci ilin iyununda həyata keçirilən əməliyyat zamanı Bulgerin saxlanılması FBI tarixində ən böyük axtarış əməliyyatlarından birinin uğurla başa çatması kimi qiymətləndirildi.

### Polis təqibləri ən çox Los Ancelesdə yaşanır

Los Anceles şəhəri polis təqiblərinin ən çox qeydə alındığı bölgələrdən biridir. Burada baş verən bir çox hadisə televiziya kanalları tərəfindən canlı yayımlanır. Bununla bağlı görüntülər tez-tez sosial platformalarda paylaşılır və izləyicilər tərəfindən geniş müzakirə edilir.

2016-cı ildə baş verən hadisələrdən birində silahlı şübhəli şəxs avtomobillə polis təqibindən yayınmağa çalışıb. Əməliyyata yerüstü patrul ekipajları ilə yanaşı, polis helikopteri də cəlb olunub. Helikopterdən ötürülən real zaman görüntüləri vasitəsilə avtomobil fasiləsiz izlənilib.

Şübhəli bir neçə magistral yolu dəyişsə də, polis tərəfindən qurulan koordinasiyalı yol blokları nəticəsində qaçış dayandırılıb və həmin şəxs saxlanılıb. Bu hadisə Los Anceles Polis Departamentinin hava və yerüstü bölmələri arasında qurduğu koordinasiyanın effektiv nümunələrindən biri hesab olunur.

### London polisi kütləvi əməliyyatları kameralarla idarə edirdi

Böyük Britaniyada 2011-ci ildə baş verən London iğtişaşları təkcə ictimai asayişin pozulması ilə deyil, həm də sonradan aparılan genişmiqyaslı araşdırmalarla yadda qaldı. Hadisələr zamanı şəhərin müxtəlif ərazilərində qarət, vandalizm və yanğın halları qeydə alındı. Londonun geniş müşahidə kameraları şəbəkəsi hüquq-mühafizə orqanlarına hadisələri izləmək və iştirakçıları müəyyən etmək imkanı verdi. Polis sonrakı günlərdə və həftələrdə əldə olunan görüntülər əsasında yüzlərlə şəxsin kimliyini müəyyən edərək onları saxladı. Bu hadisə göstərdi ki, müasir dövrdə polis təqibi yalnız küçələrdə deyil, həm də rəqəmsal görüntülər və məlumat bazaları üzərindən aparılır.

### ABŞ və Avropada yüksək sürətli təqiblər

ABŞ və Avropanın bir sıra ölkələrində polis təqibləri daha çox yüksək sürətli avtomobil qaçışları şəklində baş verir. Xüsusilə Kaliforniya, Texas və Florida ştatlarında bu tip hadisələr tez-tez qeydə alınır və bir çoxu canlı yayımlanır. Belə halların



əksəriyyətində şübhəlilər şəhər sərhədlərini tərk etməyə və ya izlərini itirməyə çalışsalar da, yol patrul xidmətləri, hava dəstəyi, nömrə tanıma sistemləri və yol blokları sayəsində qısa müddətdə saxlanılırlar. Müasir nəqliyyat nəzarət sistemləri polis əməliyyatlarının effektivliyini daha da artırır.

### Texnologiya qaçış imkanlarını azaldır

Tarixə düşən polis təqibləri göstərir ki, cinayətkarların istifadə etdiyi üsullar dəyişsə də, hüquq-mühafizə orqanlarının texnoloji imkanları da paralel şəkildə inkişaf edir. Bir vaxtlar aylarla, hətta illərlə gizlənmək mümkün idisə, bu gün müşahidə kameraları, rəqəmsal izlər, məlumat bazaları və koordinasiyalı əməliyyatlar qaçış imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Məhz buna görə də ən məşhur polis təqiblərinin böyük əksəriyyəti eyni sonluqla - saxlanılma və qanun qarşısında cavab verməklə başa çatır.

*Aytən Tahirova*

# Güllə atıcılığı üzrə zona yarışları davam edir

## Şuşa komandası yarışların qalibi olub



Daxili işlər orqanlarının əməkdaşları arasında xidməti silahdan güllə atıcılığı üzrə zona yarışları davam edir.

Bərdə rayonunda təşkil olunan növbəti mərhələdə Gəncə, Şəmkir, Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Bərdə, Göygöl, Samux, Goranboy, Naftalan, Tərtər, Daşkəsən, Kəlbəcər, Ağcabədi, Ağdam, Şuşa, Laçın və Xankəndi şəhər və rayon polis şöbələrinin əməkdaşları iştirak ediblər. Yarışlarda ümumilikdə 19 komanda qüvvəsini sınayıb.

İştirakçılar tapşırıqlar üzrə hazırlıq səviyyələrini və peşə bacarıqlarını nümayiş etdiriblər. Gərgin və maraqlı mübarizə şəraitində keçən yarışların yekununda həm fərdi, həm də komanda hesabında qaliblər müəyyənləşdirilib.

Ümumi nəticələrə əsasən, Şuşa Rayon Polis Şöbəsinin komandası birinci yerə layiq görülüb. Bərdə Rayon Polis Şöbəsinin komandası ikinci, Gəncə Şəhər Baş Polis İdarəsinin komandası isə üçüncü yeri tutub.

Həmçinin Hacıqabul rayonunda keçirilən zona yarışında Şirvan, Hacıqabul, Saatlı, Sabirabad, İmişli, Beyləqan, Füzuli, Cəbrayıl, Lənkəran, Biləsuvar, Salyan, Neftçala, Cəlilabad, Masallı, Yardımlı, Lerik, Astara və Xocavənd şəhər və rayon polis orqanlarının əməkdaşlarından ibarət 18 komanda mübarizə aparıb.

Yarışın yekununa əsasən, Lənkəran Şəhər Rayon Polis Şöbəsinin komandası birinci yeri tutub. Biləsuvar Rayon Polis Şöbəsinin komandası ikinci, Hacıqabul Rayon Polis Şöbəsinin komandası isə üçüncü olub.

Qaliblər diplom və medallarla təltif ediliblər.

*Ləman Babayeva*

# Nadir nəşrlərin sirli talanı

## Orijinal əsərləri saxta nüsxələrlə əvəz edən dəstə necə ifşa olundu?



Cari ilin 9 iyun tarixində Fransanın Paris və Lion şəhərlərindəki nüfuzlu kitabxanalardan nadir və qiymətli nəşrlərin oğurlanması ilə bağlı məhkəmə prosesi başlayıb. Məhkəmə nadir kitabları saxta surətlərlə əvəz edərək oğurlamaqda təqsirli bilinən altı Gürcüstan vətəndaşı barədə işə baxır.

İstintaq materiallarına görə, dəstə Paris və Lion kitabxanalarında saxlanılan nadir nəşrləri, o cümlədən rus ədəbiyyatının görkəmli nümayəndəsi Aleksandr Puşkinin əsərlərini hədəfə alıb. Cinayət nəticəsində kitabxanalara təxminən 770 min avro məbləğində ziyan dəyib. Prokurorluq hadisəni əvvəlcədən planlaşdırılmış və genişmiqyaslı oğurluq hadisəsi kimi qiymətləndirib. Bildirilib ki, təqsirləndirilən şəxslər əvvəlcə oxu zallarında nadir kitabların səhifələrini fotoşəkilə çəkərək ölçülərini müəyyənləşdiriblər. Daha sonra isə yüksək keyfiyyətli surətlər hazırlayıb, orijinal nüsxələri saxta variantlarla əvəz ediblər. Təqsirləndirilənlər arasında beş kişi və bir qadın var. Məhkəmə onların cinayət məqsədilə əlbir olduqlarını və mədəni irs nümunələrinin talan edilməsində iştirak etmələrini araşdırır.

*Fidan Məmmədova*

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: ANAR QAFAROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik